**Samiddin Həmzə oğlu Qasımov**

**UOT:338.242:338.246.025.2:338.33; JEL:D04;O14;F5.**

# Müasir dövrdə regionun iqtisadi inkişafının sürətləndirilməsində ev təsərrüfatlarının əhəmiyyəti

***Xülasə***

*Tədqiqatın məqsədi – müasir dövrdə regionun iqtisadi inkişafının sürətləndirilməsində ev təsərrüfatlarının əhəmiyyətinin tədqiqindən ibarətdir. Bu məqsədlə, ev təsərrüfatlarının inkişaf etdirilməsi üzrə regional səviyyədə beynəlxalq təcrübənin aktual məsələləri araşdırılmışdır. Ev təsərrüfatlarının inkişaf etdirilməsi və bu sahədə tətbiq olunan dövlət dəstəyi mexanizmlərinin mahiyyəti açıqlanmışdır. Beynəlxalq təcrübədən istifadə etməklə Azərbaycanın ən mühüm bölgəsi olan Naxçıvan MR-da ev təsərrüfatlarının inkişaf etdirilməsi prioritetləri verilmişdir. Bundan başqa, regionun iqtisadi inkişafının sürətləndirilməsində ev təsərrüfatlarının əhəmiyyəti araşdırılmışdır. Ev təsərrüfatlarının iqtisadi inkişaf proseslərində rolu və funksiyaları üzrə təhlillər aparılmışdır. Regionun iqtisadi inkişafının sürətləndirilməsində ev təsərrüfatlarının əhəmiyyəti üzrə təkliflər və tövsiyələr hazırlanmışdır. Tədqiqatın metodologiyası – tədqiq olunan problemlərə dair məsələləri araşdırmaq üçün təhlil və sintez, ümumiləşdirmə metodlarından ibarətdir. Əlavə olaraq, regionun iqtisadi inkişafının sürətləndirilməsində ev təsərrüfatlarının əhəmiyyəti üzrə müxtəlif alim və tədqiqatçıların elmi əsərlərindəki mühüm müddəalarda metodoloji yanaşmalar kimi əsas götürülmüşdür. Tədqiqatın tətbiqi əhəmiyyəti - alınmış nəticələrdən və elmi-iqtisadi müddəalardan regionun iqtisadi inkişafının intensivləşdirilməsində və şaxələndirilməsində ev təsərrüfatlarının rolunun artırılması üzrə tənzimləyici və təkmilləşdirici tədbirlər kompleksinin işlənməsində istifadə olunması imkanları ilə izah olunur. Tədqiqatın nəticələri – müasir dövrün çağırışlarından yanaşmaqla Azərbaycanda regional səviyyədə iqtisadi inkişaf proseslərinin sürətləndirilməsində, o cümlədən Naxçıvan MR-da sosial-iqtisadi inkişafın daha səmərəli şəkildə modelləşdirilməsində ev təsərrüfatlarının rolunun artırılmasına dair daha məhsuldar və səmərəli mexanizmlərin işlənməsi ilə bağlıdır. Tədqiqatın orijinallığı və elmi yeniliyi – araşdırma proseslərində baxılan problemlər, onların mahiyyətinin açıqlanması və həlli yollarının müəyyənləşdirilməsi üzrə yanaşmaların əhəmiyyətli hissəsi orijinallığı ilə diqqət çəkir. Əsas elmi yenilik isə müasir qlobal transformasiyalar şəraitində regionun iqtisadi inkişafının sürətləndirilməsində ev təsərrüfatlarının çoxfunksiyalı əhəmiyyətinin qiymətləndirilməsi və əsaslandırılmasıdır. Regionlarda ev təsərrüfatlarına dövlət dəstəyi mexanizmlərinin gücləndirlməsi hesabına iqtisadi fəallığın artırılması və regionlarda olan sosial-iqtisadi inkişaflıa bağlı problemlərin daha səmərəli həlli yollarının müəyyənləşdirilməsinin vacibliyi ön plana çıxarılmışdır. Azərbaycanda regional səviyyədə, o cümlədən Naxçıvan MR-də regionun iqtisadi inkişafının intensivləşdirilməsində ev təsərrüfatlarının funksiyalarının genişləndirilməsi üzrə tövsiyələr verilmiş və təkliflər hazırlanmışdır.*

***Açar sözləri:*** *region, ev təsərrüfatları, ev təsərrüfatlarının inkişaf problemləri, regionlarda ev təsərrüfatlarının inkişafı üzrə beynəlxalq təcrübə, ev təsərrüfatlarının inkişafına dövlət dəstəyi mexanizmlər, ev təsərrüfatları, ev təsərrüfatların əhəmiyyəti, regionun iqtisadi inkişafı, əhalinin həyat səviyyəsi, iqtisadi fəallıq.*



*©Samiddin Həmzə oğlu Qasımov Sumqayıt Dövlət Universiteti, doktorant. E-mail: qsamiddin@mail.ru*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

**Giriş**

Qlobal transformasiyalar dövründə ölkədə makroiqtisadi sabitliyin saxlanılması, sosial-iqtisadi inkişaf problemlərinin daha tarazlı həlli yollarının müəyyənləşdirilməsi və maksimum səmərəli mexanizmlərin işlənməsi vacib şərtlərdəndir. Bu məsələlərin regional səviyyədə daha geniş spektrdə baxılması və xüsusilə bu proseslərdə ev təsərrüfatlarının rolunun obyektiv olaraq qiymətləndirilməsi tələb olunur. Belə ki, əhalinin maddi rifah səviyyəsi cəmiyyətin sosial-iqtisadi inkişafının əsas göstəricilərindən biridir və bu qəbildən olan göstəricilərə əhalinin ayrı-ayrl sosial qrupları üzrə nominal və real gəlirlərin paylanması da daxildir. Digər tərəfdən, ev təsərrüfatlarının rolu və əhəmiyyəti bu baxımdan mühüm əhəmiyyət kəsb edir və ölkə əhalisinin yarıdan çoxu məhz regionlarda, kənd yerlərində yaşayır. Eyni zamanda ev təsərrüfatlarının gəlirliliyinin artırılması, ümumilikdə regionların və kənd yerlərinin sosial-iqtisadi inkişafının modelləşdirilməsində və intensivləşdirilməsində əhəmiyyətli rol oynayır. Qeyd edək ki, ev təsərrüfatlarının pul gəlirləri əmək gəlirlərindən, pensiyalar, təqaüdlər, digər sosial transferlər, kənd təsərrüfatı məhsullarının satışından əldə olunan gəlirlər, özünəməşğulluqdan qazanılan gəlirlər, mülkiyyətdən əldə olunan gəlirlər, sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin gəlirləri, həmçinin natura şəklində daxil olmuş ərzaq məhsullarının və ev təsərrüfatının üzvlərinin istifadəsinə daxil olan digər qiymətlilərin dəyərinin cəmindən formalaşır. Bütövlükdə, ev təsərrüfatlarının məcmu gəlirləri dedikdə, müxtəlif pul gəlirləri və natura ifadəsində gəlirlərin cəmi kimi başa düşülür. Ev təsərrüfatlarının fəaliyyətinin fundamental araşdırılması, ev təsərrüfatı gəlirlərinin strukturunun təhlili və əhalinin sosial-iqtisadi qruplarının mövcud vəziyyətinin, məşğuliyyətinin, iqtisadi fəallığının, yaşayış səviyyəsinin obyektiv baxılması və öyrənilməsi, ümimiləşdirməsi, müqayisələrin aparılması, obyektiv reallıqlardan çıxış etməklə, ev təsərrüfatlarının rolunun regionların iqtisadi inkişafında yüksəldilməsinin təmin edilməsi həllini gözləyən mürəkkəb problemlər kimi qalmaqdadır. Bundan əlavə, ev təsərrüfatlarının fəaliyyətinin genişləndirilməsi özü ilə yeni iş yerlərinin yaradılması imkanlarını formalaşdırır. Nəticədə yeni istehsal sahəsi özündə müsbət və mənfi yönləri ilə təzahür edən çoxsaylı problemləri, o cümlədən istehsalın ümumi və çeşid ifadəsinin genişlənməsi və onun nəticələrinin reallaşdırılması üçün bazarların imkanlarının qiymətləndirilməsi, yeni texniki imkanlarından istifadə və onların dəyərinin möcvud malyyə resurslarına uyğunluğu və s. istiqamətlərdə məhsuldar potensial formalaşdırılmış olur. Lakin iqtisadi fəal insanın iqtisadi vahidlə yanaşı çoxsaylı qeyri-iqtisadi ehtiyacları olan sosial fərd olması da yaddan çıxmamalıdır. Bu baxımdan bəlli ixtisasa, sənət-peşə imkanlarına və gəlir mənbəyinə malik olma üzvlər tərəfindən fəaliyyət zamanı daha məhsuldar nümayiş etdirmələri ilə bərabər, daha çox gəlir əldə etmələrinə və ehtiyacların daha yüksək səviyyədə ödənilməsinə də yol açır və bu amillərin də nəzərə alınması vacibdir. Xüsusilə, ölkə Prezidentinin 2 fevral 2021-ci il tarixli “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” Sərəncamında yaxın, orta və uzaq perspektivlər nəzərə alınmaqla, 2030-cu ilədək olan dövrə qədər ölkədə sosial-iqtisadi inkişafın yeni səviyyəyə qaldırılması, vətəndaşların rahat yaşamaları üçün sistemli tədbirlərin görülməsi, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi və digər problemlərin ardıcıl şəkildə həll olunması üzrə hədəflər və prioritetlər müəyyənləşdirilmişdir [1].

**Qlobal çağırışlar şəraitində ev təsərrüfatları və regional inkişafın sürətləndirilməsinə dair yanaşmalar və onların xüsusiyyətləri**

Qeyd edək ki, nəzəri və təcrübi araşdırmalar kontekstindən yanaşsaq, ev təsərrüfatları özlərinin ixtisaslaşma sahəsini müəyyən etdikdən sonra istehsalın istiqamətləri haqda müəyyənləşdirici fikirlər irəli sürür və bunun real tətbiqi üzrə işlər həyata keçirilir. Bu baxımdan istehsalın növ, qrup və istiqamətlər üzrə həcmlərinin dəqiqləşdirilməsi və


© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

məqsədyönlü şəkildə təşkili mühüm əhəmiyyət kəsb edir. Bəhs olunan məsələdə optimal variantlar əsasında işlərin təşkili, daxili imkanların qiymətləndirilməsi, marketinq monitorinqlərinin, sorğu və istehlakçı müsahibələrinin aparılması zamanı əsas iqtisadi alətlərdən hesab olunur. Bu işlərin icrasında çoxsaylı problemlər mövcuddur, belə ki, onlar bir çox hallarda kor-təbii sürətdə aparılır, icraçılar zəruri bilik və səriştəyə malik olmur, işlərin kənar şəxslər tərəfindən aparılması üçün maliyyə vəsaitlərinin çatışmazlığı müşahidə edilir və ev təsərrüfatları üçün zəruri məsləhət-informasiya xidmətlərinin təşkili səviyyəsi isə əksər hallarda arzuolunan deyildir. Hazırkı dövrdə sadalanan problemlər ev təsərrüfatlarında istehsal həcmləri üzrə bölgünün aparılmasına da mənfi təsir göstərməkdədir və bütün bu amillər regional səviyyədə ev təsərrüfatlarının inkişafında özünü büruzə verir.

XX əsrin 1980-90-cı illərində Azərbaycanda baş verən sosial-iqtisadi proseslər, istehsal vasitələrinin milliləşdirilməsi iqtisadiyyatın inzibati-amirlik sistemi ilə idarə edilməsi təməlinə dayanan iqtisadi modelin səmərəli olmadığını sübut etdi. Sovetlər Birliyinin dağılması və respublikamızda müstəqilliyin bərpa olunması suveren dövlət kimi yeni iqtisadi sistemə keçid çərçivəsində ölkəmizdə planlı iqtisadiyyatdan imtina edilməsi və bazar münasibətlərinin formalaşdırılması ilə bağlı olaraq sahibkarlıq fəaliyyətinin inkişafına, o cümlədən ev təsərrüfatlarının fəaliyyətinə əsaslı zəmin yaratdı. Ev təsərrüfatı sahiblərinə limitsiz azadlığın verilməsi, onların təcrübəsizliyi və qeyri-peşəkarlığı nəticəsində iqtisadiyyatda yaranmış anormal vəziyyətin səbəbi onların formalaşdırılması və inkişafına dövlət himayəsinin vacibliyini empirik olaraq başa düşən və qəbul edən iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərin təcrübəsinin nəzərə alınmaması idi. Belə ki, ev təsərrüfatlarının təşəkkülü və inkişaf etdirilməsi istiqamətindəki mövcud beynəlxalq təcrübəni araşdırarkən, ilk əvvəl dövlətin onlara dəstəyinin səbəbini müəyyənləşdirmək lazımdır. Bu dəstək və ya himayənin səbəbi ev təsərrüfatlarının yüksək dinamikliyi, innovasiya fəaliyyətinin çevikliyi, yeni məhsulları və iş yerlərini yarada bilmə qabiliyyətliliyi, ölkə əhalisinin maddi rifah səviyyəsini təmin etməsi ilə bağlıdır. Misal üçün, ABŞ-da XXI əsrin ilk onilliyi ərzində yaradılan yeni iş yerlərinin təxminən 22%-i ev təsərrüfatlarının payına düşür və bununla bərabər ev təsərrüfatlarının iqtisadiyyata kapital qoyuluşunun səmərəliliyi digər fəaliyyət sferalarına nisbətən 9 dəfə yüksəkdir. Regional səviyyədə ev təsərrüfatlarının təşəkkülü və inkişaf etdirilməsi istiqamətindəki mövcud beynəlxalq təcrübəni araşdırarkən, ilk əvvəl dövlətin onlara dəstəyinin səbəbini müəyyənləşdirmək lazımdır. Bu dəstək və ya himayənin səbəbi ev təsərrüfatlarının yüksək dinamikliyi, innovasiya fəaliyyətinin çevikliyi, yeni məhsulları və iş yerlərini yarada bilmə qabiliyyətliliyi, ölkə əhalisinin maddi rifah səviyyəsini təmin etməsi  ilə bağlıdır. Məsələn, ABŞ-da XXI əsrin ilk onilliyi ərzində yaradılan yeni iş yerlərinin təxminən 22%-i ev təsərrüfatlarının payına düşür. Bununla yanaşı, ev təsərrüfatlarının iqtisadiyyata kapital qoyuluşunun səmərəliliyi digər fəaliyyət sferalarına nisbətən 9 dəfə yüksəkdir [2]. İnkişaf etmiş ölkələrdə ev təsərrüfatlarının sürətli və dayanıqlı inkişafı və ya böyüməsi ölkə hökumətlərinin iqtisadiyyatın bu sektorunun inkişafında maraqlı olması ilə izah edilir.



Böyük Britaniyada bu tip dövlət orqanı 2000-ci ildə “Sənaye və Ticarət Nazirliyi”nin tərkibində “Kiçik biznesə xidmət üzrə milli agentlik” adı altında, ABŞ-da SBA adı altında, Almaniyada “İqtisadiyyat və Texnologiyalar Federal Nazirliyi ”nin tərkibində “Kiçik və orta biznes, sənətkarlıq, xidmət və azad peşə ümumi direktoratlığı” adı altında, Yaponiyada “İqtisadiyyat, Ticarət və Sənaye Nazirliyi” tərkibində “Kiçik və orta sahibkarlıq agentliyi” adı altında, Macarıstanda “İqtisadiyyat Nazirliyi” tərkibində “Sahibkarlığın inkişafı üzrə milli sovet” adı altında, Polşada İqtisadiyyat Nazirliyi tərkibində “Sənətkarlıq, kiçik və orta sahibkarlıq departamenti” adı altında formalaşdırılmışdır. Kiçik sahibkarlıq strukturları timsalında ev təsərrüfatlarına dolayı maliyyə dəstəyinin güclü vasitəsi dövlət və ya regional proqramlar

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

çərçivəsində ev təsərrüfatlarının maliyyə resursları ilə təmin edilməsi məqsədilə ayrılan kreditlərə dövlət təminatının verilməsidir. Bu cür proqramlar ABŞ-da, Yaponiyada, Almaniyada və digər ölkələrdə mövcuddur.

ABŞ, Yaponiya və İngiltərədə geniş yayılmış ev təsərrüfatları da daxil olmaqla kiçik və orta sahibkarlıq fəaliyyətinin investisiya kreditləşməsi, məsələn investisiya yönümlü kredit verilməsi təcrübəsi olduqca maraqlıdır. Regionlarda ev təsərrüfatlarının gələcək inkişafına yönəldilə biləcək maddi və maliyyə resurslarının məhdud olmasından çıxaraq, Yaponiya və Böyük Britaniyanın təcrübəsinə müraciət etmək, fikrimizcə, məqsədəuyğundur. Digər tərəfdən, inkişaf etmiş ölkələrdə ev təsərrüfatlarının sürətli və dayanıqlı inkişafı və ya böyüməsi ölkə hökumətlərinin iqtisadiyyatın bu sektorunun inkişafında maraqlı olması ilə izah edilir. Ev təsərrüfatlarının inkişafının digər bir səbəbi isə dövlət orqanları tərəfindən əhalinin sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa sövq edilməsidir və bununla bağlı stimullaşdırıcı tədbirlərin görülməsidir. Ev təsərrüfatlarının təşəkkülü və inkişaf etdirilməsi istiqamətində dünya təcrübəsinin dərindən araşdırılması və ölkənin sosial-iqtisadi inkişaf xüsusiyyətlərinə uyğun olaraq istifadə olunması vacib şərtlərdəndir. Belə ki, bu ölkələrdə müxtəlif fəaliyyət növlərinə dövlət dəstəyi sistemində çoxlu oxşar cəhətlər mövcuddur. Bu da iqtisadiyyatdakı qloballaşma proseslərinin güclü təsiri və maliyyə dəstəyi, texniki və informasiya köməyi üzrə ixtisaslaşan beynəlxalq təşkilatların fəaliyyəti ilə əlaqəlidir. Məhz bu baxımdan inkişaf etmiş ölkələrin ev təsərrüfatlarının formalaşdırılması və inkişafı istiqamətindəki təcrübələrini öyrənmək məqsədəuyğundur və bununla bağlı məsələləri ölkədə sosial-iqtisadi inkişaf proseslərində, o cümlədən regional səviyyədə iqtisadi inkişafın sürətləndirilməsi prioritetlərində nəzərə almaq vacibdir. Qeyd edək ki, ev təsərrüfatlarının təsnifləşdirmə əlamətləri sırasında əmlak əlaməti özünün spesifikliyi ilə fərqlənməkdədir və o müvafiq təsərrüfat vahidlərinin malik olduğu əmlak haqda ümumilikdə, yəni dəyər ifadəsində, onun ayrı-ayrı növləri üzrə, başqa sözlə natura və dəyər ölçülərində təsəvvür yaratmaqla mükəlləfdir. Bu göstəricilər sırasında yaşayış sahəsinin xarakteri, mövcud və istifadəsi mümkün olan otaqların sayı, avtonəqliyyat vasitələrinə, torpaq sahələrinə və digər əmlaka malikolma ifadə olunmaqdadır. Ev təsərrüfatlarına iqtisadi subyekt kimi baxılması onun əmlakının tərkibində istehsal və qeyri-istehsal əmlakını da özünün aparıcı tərkib komponentləri əsasında fərqləndirmək zərurətini yaradır. Digər tərəfdən, ev təsərrüfatlarını xarakterizə edən əlamətlərnin vaciblərindən biri də gəlirlilik əlaməti təşkil edir.

Ümumiyyətlə, gəlir ifadəsi özündə təsərrüfat vahidinə müxtəlif mənbələr hesabına pul və ya əmlak şəklində daxilolmalar haqqında təsəvvür yaratmaqdadır. Bu əlamətin əhəmiyyəti eyni zamanda onunla izah olunur ki, istənilən təsərrüfat vahidi haqqında məlumatların ümumiləşdirilməsi və yekunlaşdırılmasında, onlar haqqında müfəssəl məlumatların ortaya çıxarılmasında gəlirlərin mənbəyi və həcmlərinin, onların sərfolunma istiqamətlərinin dəqiqləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Ev təsərrüfatlarının gəlirlərinin nümunəvi təsnifləşdirmədə əsasən dörd qrup üzrə bölgüsünün aparılmasını müşahidə etmək mümkündür: lkin gəlirlər; mülkiyyətdən gəlirlər; cari transfertlər və sair daxilolmalar. İstənilən ev təsərrüfatının formalaşan gəlirlərinin istifadəsinə gəldikdə isə burada bir sıra istiqamətlər üstünlük təşkil edir: vergi və digər məcburi ödənişlərin edilməsi; şəxsi sosial ehtiyacların ödənilməsi; istehsalın təkrarlanması və genişləndirilməsi, yeni texnika və texnologiyaların alınması və mənimsənilməsi istiqamətində xərcləmələr; yığıma, şəxsi əmanətlərin formalaşdırılmasına vəsaitlərin yönəldilməsi. Eyni zamanda, regional inkişaf kontekstində əmtəə və xidmətlərin istehsalı və bölgüsü prosesində mühüm rol oynayan ev təsərrüfatlarının müxtəlif tarixi dövrlərdə ictimai münasibətlərin xarakterindən asılı olaraq iqtisadiyyatdakı yeri və rolu, strukturu və funksiyaları, böyüklüyü və dayanıqlılığı, hüquq və



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

cavabdehliyi, cəmiyyətdəki mövqeyi və ya sosial-iqtisadi statusu dəyişmişdir [3]. Milli iqtisadiyyatda baş verən proseslərin real mənzərəsini təcəssüm etdirən ev təsərrüfatlarının idarəetmə baxımından ən mühüm özəlliyi təsərrüfat sahibliyinin və idarəetmənin eyni şəxsə və ya fərdə məxsus olmasıdır [4].

Ev təsərrüfatlarında planlaşdırma, təşkilatlanma, icra, koordinasiya və nəzarət kimi idarəetmə funksiyaları böyük ölçüdə mərkəzi bir şəkildə və ya tək əldə cəmlənmiş formada həyata keçirilməkdədir və ev təsərrüfatlarının sahibləri təkbaşına qərar qəbul edən şəxs olduğu üçün təsərrüfatın təşkilatlanmasını və inkişafını gecikdirməkdədir. Məhz bu nöqteyi-nəzərdən ev təsərrüfatlarının formalaşdırılması və perspektiv inkişafı üçün beynəlxalq təcrübənin nailiyyətlərindən istifadə zəruridir [5]. Müasir şəraitdə qlobal rəqabət, beynəlxalq iqtisadi inteqrasiya və sürətlə dəyişən informasiya texnologiyaları uğurlu bir şəkildə böyümək istəyən ev təsərrüfatlarının daimi bir dinamizm içində olmasını zəruri hala gətirmişdir. İnkişaf edən iqtisadiyyatda böyümə sağlam və uğurla fəaliyyət göstərən ev təsərrüfatları üçün normal bir haldır. Qeyd edək ki, ev təsərrüfatlarının böyük əksəriyyəti kiçik təsərrüfat formaları şəklində fəaliyyətə başlamış və zamanla müxtəlif mərhələlərdən keçərək müəyyən bir böyüklüyə çatmışdır [6]. Regionların iqtisadi inkişafı ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb etməkdədir və regionlar inkişaf etdikcə ölkə iqtisadiyyatına öz töhfələrini vermiş olurlar. Regionların iqtisadi inkişafında isə regional biznesin inkişafı əhəmiyyətli yer tutmaqadır, belə ki, regional biznesin inkişafına nail olmaq üçün də əlbəttə ki, kiçik və orta biznesin inkişaf etdirilməsi mühüm faktorlardan birisidir. Regionda formalaşmış biznes mühitin olması kiçik və orta biznesin inkişafına stimul yaradir ki, bu da öz növbəsində regional biznesin inkişafına öz müsbət təsirini göstərmiş olur. Regionların iqtisadi inkişafında mühüm yer tutan regional biznesin inkişafinda isə ev təsərrüfatlarının məxsusi yeri vardır. Ev təsərrüfatlarının və ailə biznesinin inkişafı regional biznesin inkişafına xidmət edir.



Dövlət də fərdi təsərrüfatların və ev təsərrüfatlarının qurulmasına və inkişafına öz qayğısını göstərməkdədir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən qəbul olunmuş özünüməşğulluq proqramına uyğun yüzlərlə ailəyə fərdi təsərrüfatlarının qurulması üçün tələb olunan aktivlər verilmişdir. Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyev tərəfindən ”ABAD“ publik hüquqi şəxsin yaradılması haqqında 23 sentyabr 2016-cı il tarixli fərman imzalanmışdır. Fərmanda qeyd olunur ki, Azərbaycan Respublikasının sosial-iqtusadi imkişafında vətəndaşların fəal iştirakına, kiçik və orta sahibkarlığın inkişafına, əhalinin məşğulluq səviyyəsinin artırılmasına və rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşmasına dəstək məqsədi ilə sosial yönümlü layihələr həyata keçirən “ABAD” (Ailə Biznesinə Asan Dəstək) mərkəzləri yaradılsın. Bu fərman ölkəmizdə özünüməşğulluq və ailə biznesinin qurulması üçün hüquqi bazanı təmin etmişdir. “ABAD” mərkəzləri əhaliyə lazım olan şəraiti təmin etmək üçün hüquqi və maliyyə imkanlarını səfərbər edir. Dövlət dəstəyinin sayəsində kiçik biznesin önəmli hissəsini təşkil edən ev təsərrüfatları inkişaf etməklə regional biznesin inkişafına xidmət etmiş olur. Regional siyasətin və regionların iqtisadi potensialının davamlı olaraq inkişaf etdirilməsi məqsədi ilə hazırda “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial iqtisadi inkişafı” dövlət proqramının icrası davam edir. Məqsəd regionlarda sahibkarlıq subyektlərinin dəstəklənməsi, regionlarda dayanıqlı inkişaf tendensiyasının davamlılığının təmin edilməsi, ucqar kəndlərin əhalisinə sosial xidmətin daha səmərəli təşkilini planlamaqdır.

**Azərbaycanda regional səviyyədə iqtisadi inkişafının sürətləndirilməsində ev təsərrüfatlarının əhəmiyyətinin artırılması istiqamətləri**

Qeyd edək ki, ev təsərrüfatlarının sosial-iqtisadi inkişaf proseslərində rolunun obyektiv olaraq qiymətləndirilməsi və bu proseslərdə onların rolunun artırılması dövlətin regional siyasətinin başlıca prioritetlərindən hesab olunur. Belə ki, ev təsərrüfatlarının həyat mərhələsi

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

və idarəedicinin idarəetmə tərzi ev təsərrüfatına sahibliyin və təsərrüfatın idarə edilməsinin tək əldə toplanmasına və ya parçalanmasına başqa sözlə ayrılmasına təsir edir. Ev təsərrüfatlarında planlaşdırma, təşkilatlanma, icra, koordinasiya və nəzarət kimi idarəetmə funksiyaları böyük ölçüdə mərkəzi bir şəkildə və ya tək əldə cəmlənmiş formada həyata keçirilməkdədir və ev təsərrüfatlarının sahibləri təkbaşına qərar qəbul edən şəxs olduğu üçün təsərrüfatın təşkilatlanmasını və inkişafını gecikdirməkdədir. Məhz bu nöqteyi-nəzərdən ev təsərrüfatlarının formalaşdırılması və perspektiv inkişafı üçün beynəlxalq təcrübənin nailiyyətlərindən istifadə zəruridir. Bundan əlavə, ev təsərrüfatlarının fəaliyyətinin həyata keçirilməsində istehlak bazarlarında müstəqil qərarların qəbul edilməsi kimi funksiya mühüm rol oynamaqdadır. Bizə görə, bəhs olunan məsələnin iki aspektdə araşdırılması zəruridir:

- mübadilə məkanlarında istehsal olunmuş əmtəəlik məhsulla bağlı bütün qərarların müstəqil şəkildə verilməsi;
- öz istehlakınm mühüm komponentləri olan xammal, ehtiyat hissələri, texniki vasitələrin əldə olunması üzrə sərbəst şəkildə qərarların qəbulu.

Birinci bənd özü-özlüyündə bir istehsal fazasının başa çatmasından və növbəti üzrə yeni mərhələyə keçiddən xəbər verir. Aydındır ki, müasir dünyada olduğu kimi, ölkəmizdə də bazar münasibətlərinin iştirakçıları daha çox qazanc əldə etmək uğrunda mübarizə aparırlar. Nəticə etibarı ilə onlar bir tərəfdən ətraf mühitə, başqa sözlə istehlakçı mühitinə uyğunlaşmalı, digər tərəfdən bu istiqamətdə rastlaşdıqları problem və çətinliklərdən çıxış yolları tapmalıdırlar. Qeyd olunan sahədə maksimal mümkün nəticələrin əldə olunması bir çox amildən asılıdır və bu baxımdan bazarlar və digər mübadilə məkanlarında məhsula olan tələbat üzrə daimi monitorinqlərin aparılması, özünün təbii-iqlim və yer quruluşu şəraitinin, əsas fondlar, materiallar, digər komponentlər üzrə imkanlarının obyektiv qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb etməkdədir. Sadalananlar öz istehsalının təşkili ilə bağlı qərar qəbul etmək vəzifəsini də ev təsərrüfatının öhdəsinə qoymaqdadır. Məhz bu əsasda təsərrüfat subyektinin ixtisaslaşma istiqaməti müəyyənləşdirilməli, onun məhsullarının növ-çeşid etibarı ilə hansı arealı əhatə etməsinə aydınlıq gətirilməli, onun mərhələliyi və digər xüsusiyyətləri haqqında düşüncələr sistemləşdirilməlidir.



Qeyd edək ki, ev təsərrüfatlarının böyük əksəriyyəti kiçik təsərrüfat formaları şəklində fəaliyyətə başlamış və zamanla müxtəlif mərhələlərdən keçərək müəyyən bir böyüklüyə çatmışdır. Ev təsərrüfatlarının getdikcə böyüməsi idarəetmə funksiyalarını öz əlində cəmləyən və təkbaşına qərar qəbul edən təsərrüfat sahibinin işini çətinləşdirir. Belə ki, başlıca məqsədi böyümək olan hər bir ev təsərrüfatı istehsal xərclərinin ən minimal həddini təmin edəcək istehsal həcmini müəyyənləşdirməlidir ki, bunun üçün ev təsərrüfatlarının sahibləri yetərli biliyə malik olmalı və öz fəaliyyətlərini düzgün planlaşdırmalıdırlar. Məhz bu baxımdan yetərli biliyə və təcrübəyə malik olmayan ev təsərrüfatı sahiblərinin maarifləndirilməsi istiqamətində əvvəldə qeyd etdiyimiz inkişaf etmiş ölkələrdəki atılmış addımların araşdırılması və bu təcrübədən yararlanaraq, regional səviyyədə tətbiqi müasir dövrün başlıca tələblərindən biridir, eyni zamanda, beynəlxalq təcrübənin öyrənilməsini zəruri edir. Digər tərəfdən, cəmiyyətin strukturunun mühüm hissəsini təşkil edən ev təsərrüfatlarının fəaliyyətinin təhlil edilməməsi və ya nəzərə alınmaması milli iqtisadiyyatda baş verən proseslərin real mənzərəsini təhrif edə bilər. Bu baxımdan göstərilən problemin araşdırılması əhəmiyyəti maliyyə və iqtisadi böhran şəraitində əhalinin baş verən böhrana uyğunlaşmasının başlıca istiqamətlərindən biri hesab edilən ev təsərrüfatlarının fəallığının ya bazar mexanizmləri vasitəsilə, ya da fəaliyyətin ənənəvi növlərindən istifadə etməklə artırılması ilə bağlıdır. Xüsusi gəlirlər olmaqla, onlar sərf olunmuş əmək sərfi və əmək ödənişi hesabına,

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

təsərrüfat sahibinin pul vəsaitləri və gəlirləri hesabına, faizlər və dividentlər hesabına, səhmdar cəmiyyətlərdə iştirak, əmlak kirayəsi, torpaq icarəsi və digər istiqamətlər hesabına formalaşmaqdadır.

Dünya iqtisadi prosesləri transformasiyalar uğradıqça iqtisadi yanaşmalar, mexanizmlər və praktiki alətlər müəyyən dəyişikliklərə məruz qalır. Bu sırada ölkə regionlarının iqtisadi inkişafının balanslaşdırılması və burada yaşayan əhalinin həyat şəraitinin yüksəldilməsi önəmli məsələlərdəndir. Azərbaycan əhalisinin yarıdan çoxu kənd yerlərində, 60-70 %-ı regionlarda yaşayır. Bu amil nəzərə alınmaqla, ölkə regionlarının sosial-iqtisadi problemlərinin kompleks baxılması, əhalinin iqtisadi fəallığının təmin edilməsi, xüsusilə sosial-iqtisadi inkişaf proseslərində ev təsərrüfatlatının rolunun artırılması vacib şərtlərdəndir. Əvvəldə qeyd etdiyimiz kimi, Azərbaycan Respublikasında regionların tarazlı inkişafı üçün ardıcıl olaraq dövlət proqramları həyata keçirilir və “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrası uğurla davam etdirilməkdədir [7]. Regionların inkişafının sürətləndirilməsi prioritetləri sırasında əsas problemlərdən biri də, önəmli fəaliyyət sahəsi kimi xüsusi yanaşma tələb edən ev təsərrüfatlarının rolunun bu proseslərdə yüksəldilməsidir. Müasir iqtisadi sistemdə ev təsərrüfatlarının tədqiqi və fundamental araşdırılması məsələləri ən mürəkkəb vəzifələr sırasındadır. Bu tədqiqatın əsas məqsədi ailənin iqtisadi kontekstdə özünü necə aparmasını ortaya çıxarmaqdır və son nəticədə ailənin iqtisadi fəallıq istiqamətinə yönəldilməsi kifayət qədər mühüm məsələ kimi diqqət mərkəzində saxlanılmalıdır [8]. Ev təsərrüfatının iqtisadi sistemin içərisində hansı mövqedə və səviyyədə təsir dairəsinin müəyyənləşdirilməsi, ev təsərrüfatının regionların iqtisadi inkişaf proseslərində rolunun obyektiv qiymətləndirilməsi vacib məsələlərdəndir. Bu halda əhalinin gəlirlərinin və xərclərinin optimallaşdırılması, ev təsərrüfatlarının iqtisadi fəallığının artırılması üçün resurslar və yüksək potensiala malik inkişaf istiqamətlərinin, indikatorlarının müəyyənləşdirilməsi mümkün olar [9]. Ev təsərrüfatları regionlarda yaşayan əhalinin istehlak səviyyəsində olan ehtiyaclarının ödənilməsində əsas funksiyanı yerinə yetirir, mikrosəviyyədə istehlak mallarına və xidmətlərinə tələbi ödəyir, makrosəviyyədə isə istehlak xərclərinin əsas hissəsini formalaşdırır [10]. Ev təsərrüfatları regionlarda yaşayan əmək qabiliyyətli əhalinin əksər hissəsini öz ətrafında birləşdirərək müxtəlif fəaliyyət və məşğuliyyət formaları hesabına onların iqtisadi fəallığını təmin etməklə bərabər, həm də bu insanların cəmiyyətə fəal inteqrasiyasını reallaşdırır, insanların nəinki regionun, bütövlikdə ölkənin sosial-iqtisadi proseslərində iştirakını təmin edir və bu təsərrüfatların verə biləcəkləri töhfələr bütövlükdə ölkənin sosial-iqtisadi inkişafında əhəmiyyətli rol oynayır. Müasir dövrdə ev təsərrüfatları iqtisadi fəaliyyətin mühüm subyektlərindən biri kimi baxılır və bu təsərrüfatların fəaliyyətindən təkcə ayrı-ayrı kiçik təsərrüfatların uğurlu fəaliyyəti yox, bütövlikdə ölkə əhalisinin rifahının təmin edilməsi asılıdır [11]. Bu təsərrüfatlar hesabına regionlarda çoxlu sayda kiçik emal və istehsal müəssisələri yaradılır, əkinçilik və bitkiçilik, heyvandarlıq sahələri inkişaf etdirilir, regionların turizm potensialından səmərəli istifadəyə səy göstərilir.

**Nəticə**

Beləliklə, regionların inkişafında ev təsərrüfatlarının rolunun yüksəldilməsi üzrə bir sıra tədbirlərin reallaşdırılmasını məqsədəuygun sayırıq:

- Regionda ev təsərrüfatlarını dövlətin köməyi ilə formalaşdırmaq lazımdır. Nəinki iqtisadi təşəbbüsün dövlət tərəfindən məhdudlaşdırılması hallarını aradan qaldırmaq, həm də ev təsərrüfatlarına təsirli dövlət köməyi mühitini yaratmaq lazımdır;
- Çevik sahibkarlıq quruluşunun formalaşdırılması özündə ev təsərrüfatlarını əlaqələndirərək iqtisadiyyatın, respublika əhalisinin tələbatına və dünya təsərrüfatının rəqabət şəraitinə uyğunlaşdırılmasına güclü təsir göstərə bilər;



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

- Ev təsərrüfatlarının təşəkkülü və inkişafına maraq oyatmaq üçün istifadə edilən tədbirlər sistemi əhalinin iqtisadi və əmək fəallığının artırılması, məhsuldar əməyin həvəsləndirilməsi amili rolunu oynamalıdır;
- Regionların sosial-iqtisadi inkişafının modelləşdirilməsində və manevrliliyin artırılmasında ev təsərrüfatlarının rolunun yüksəldilməsi üzrə müasir dövrün iqtisadi-sosial çağırışları nəzərə alınmaqla yeni fəaliyyət mexanizmləri işlənib hazırlanmalı və reallaşdırılmalıdır;
- Ev təsərrüfatlarının fəaliyyətinin maksimum səmərəli modellərinin işlənib hazırlanması, bununla əlaqədər mövcud dövlət iqtisadi siyasət mexanizmlərinin təkmilləşdirilməsi təmin edilməlidir;
- Ev təsərrüfatlarının fəaliyyətinin, maksimum effektiv inkişafının təmin edilməsi üçün tələb olunan tədbirlərin görülməsi mexanizmlərinin,qanunvericilik bazasının işlənib hazırlanması, ev təsərrüfatlarının iqtisadi fəallığının yüksəldilməsi hesabına regionların iqtisadi inkişafınıda onların əhəmiyyətinin yüksəldilməsinə nail olunmalıdır.

**Ədəbiyyat**


1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
2. Глухов, В.В. Формы и модели управления финансами в домашнем хозяйстве. Проблемы учета и финансов, 2011, №1, –с. 3-10.
3. Алагаджиева, З.М. Семья как субъект общественной жизнедеятельности. – М: Статистика, 2006, – 380 с.
4. Abbasov, T.A., Bağırov M.S. Mühasibat (maliyyə) hesabatları və audit işinin təşkili. Bakı, – 2005, – 237 s.
5. Алексеева, М.М. Планирование деятельности фирм. М.: Финансы и статистика, 2011, 611 с.
6. Бадалов, А.Л. Частно-государственное партнерство в реализации инвестиционных проектов // ЭКО. 2008, № 6, с. 129-141.
7. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. / – Azərbaycan Respublikasının Prezidentinin 29 yanvar 2019-cu il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
8. Краснова, О.М. Домашние хозяйства в современной экономической системе. Дисс. канд. экон. наук. Казань, 1999. -205 с.
9. Шлякова, О.А. Экономика домашнего хозяйства. Саратов, СГУ, издательства «Саратовский источник»; 2012. – 43 с.
10. Баскакова И.В. Домашние хозяйства в трансформационной экономике России. Дисс. канд. экон. наук. Екатеринбург, 1997. – 178 с.
11. Гирник, В.Ю. Домашние хозяйства в современной экономической системе //Сибирский торгово-экономический журнал. Выпуск №12/2011. –с. 32-35.2.




© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Самиддин Гамза оглу Гасымов**

**Важность домашних хозяйств в ускорении экономического развития региона в современном периоде**

**Резюме**

*Цель исследования – состоит из актуальных вопросов международного опыта по развитию домашних хозяйств в региональном контексте. Раскрыта сущность механизмов государственной поддержки, применяемая для развития домашних хозяйств на региональном уровне. Подготовлены предложения по развитию домашних хозяйств в Азербайджане – в Нахычеванской АР, с использованием международного опыта. Исследована важность домашних хозяйств в ускорении экономического развития региона. С этой целью анализирована роль домашних хозяйств и их функции в процессах экономического развития. Даны предложения и подготовлены рекомендации по вопросам важности домашних хозяйств в ускорении экономического развития региона. Методология исследования – использованы методы анализа и синтеза, а также обобщения. Кроме того, учтены основные научные подходы и положения, отражённые в трудах учёных и экономистов по вопросам совершенствования механизмов, повышения роли домашних хозяйств в ускорении экономического развития. Практическая значимость исследования – полученные результаты и научно-экономические подходы могут быть использованы при разработке целевых проектов и стратегий деятельности по усилению роли домашних хозяйств в ускорении экономического развития региона. Результаты исследования – подготовлены эффективные подходы и предложения относительно важности домашних хозяйств в ускорении экономического развития региона в нынешних условиях. Оригинальность и научная новизна исследования – материалы, отражённые в статье, основываются на анализе и оценке нынешнего состояния и роли домашних хозяйств в процессах ускорения экономического развития региона. Кроме того, в качестве основной научной новизны можно принять роль и важность домашних хозяйств в существенном ускорении экономического развития региона - данный вопрос рассматривается в контексте современных реалий и объективных факторов. Определены важнейшие элементы и компоненты, влияющие на комплексное и последовательное развитие домашних хозяйств в условиях рыночных отношений и экономических реформ. Даны аргументированные рекомендации и предложения по важности домашних хозяйств в интенсификации экономического развития региона в условиях новых вызовов.*

***Ключевые слова:*** *регион, домашние хозяйства, программы развития домашних хозяйств, международный опыт по развитию домашних хозяйств в регионах, государственные механизмы поддержки по развитию домашних хозяйств, домашние хозяйства, важность домашних хозяйств, экономическое развитие региона.*



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Samiddin Gamza Gasymov***

***Importance of households in accelerating the economic development of the region in the present period***

***Summary***

*Purpose of the research – is to address main issues of international experience in household development in a regional context. The essence of the mechanisms of state support used for the development of households at the regional level is disclosed. Proposals for the development of households in Azerbaijan - in the Nakhchıvan Autonomous Republic, using international experience are prepared. The importance of households in accelerating the economic development of the region is studied. The role of households and their functions in economic development processes are analyzed for this purpose. Proposals and recommendations on the importance of households in accelerating the economic development of the region are given then. Research methodology – methods of analysis and synthesis, as well as generalization are used. In addition, the main scientific approaches and provisions reflected in the works of scientists and economists on improving mechanisms and increasing the role of households in accelerating economic development are taken into account. The practical importance of a research – the results obtained and scientific and economic approaches can be used in the development of targeted projects and strategies to strengthen the role of households in accelerating the economic development of the region. Originality and scientific novelty of the research - the materials reflected in the article are based on the analysis and assessment of the current state and role of households in the processes of accelerating the economic development of the region. In addition, the role and importance of households in significantly accelerating the economic development of the region can be taken as the main scientific novelty - this issue is considered in the context of modern realities and objective factors. Key elements and components affecting the integrated and consistent development of households in the context of market relations and economic reforms are identified. Reasoned recommendations and proposals on the importance of households in intensifying the economic development of the region in the face of new challenges are given.*

***Key words:*** *region, households, household development programs, international experience in household development in regions, government support mechanisms for household development, households, importance of households, economic development of the region.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 15.12.2021.***
***Çapa qəbul olunub: 23.12.2021.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*